

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 mart 2026-cı il №20 (3022) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq

*Martın 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb.*




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirilib.

XIII Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin tədbir iştirakçılarını salamlayıb, Forumda aparılan müzakirələrin xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq deyib: "Zati-aliləri, xanımlar və cənablar, sabahınız xeyir. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri olmaqdan şərəf hissi duyuram. XIII Qlobal Bakı Forumunda burada - Bakıda görüşmək bizdə məmnunluq hissi doğurur və mən hər birinizə bu önəmli tədbirdə iştirak etdiyinizə görə təşəkkürümü bildirirəm. Bu tədbir indi xüsusilə önəmlidir. Çünki uzun illər ərzində sanki belə də olmalı imiş kimi qəbul etdiyimiz beynəlxalq münasibətlər və çoxtərəflilik sisteminin quruluşu gərginlik altındadır və bəlkə də pozulub. Beləliklə, növbəti günlərdə bizim vəzifəmiz dünyanın hansı şəkildə ola biləcəyi və olmalı olduğunu yenidən təsəvvür etmək üçün sizin təcrübəniz və müdrikliyinizdən yararlanmaqdır. Bunun üçün nostalji hisslərlə keçmişə baxmalı deyil, daha yaxşı gələcək qurmaq üçün bələdçi rolunu oynayacaq prinsiplərə sadiqliyi nümayiş etdirməliyik. Bu prosesə başlamaq üçün Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə bir yerdə olmaqdan şərəf hissi duyuruq və o, çıxışında fikirlərini bizimlə bölüşəcək. Cənab Prezident, buyurun, söz Sizindir".

(Ardı 2-ci səhifədə)

### Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatı

Qardaş Türkiyənin ərazisinə qarşı növbəti raket buraxılışını qətiyyətlə pisləyirik. Bu suverenliyin və ərazi bütövlüyünün kobud şəkildə pozulmasıdır.

Bu kimi hərəkətlər qəbuledilməz eskalasiyadır və regional sabitliyə birbaşa təhlükədir.

Qardaş Türkiyə ilə həmrəyliyimizi bir daha bəyan edirik.

### Azərbaycan və Serbiya ordularının Baş Qərargah rəisləri arasında telefon danışığı olub

Martın 11-də Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ilə Serbiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Milan Moysiloviç arasında telefon danışığı olub. Danışıq Serbiya tərəfinin təşəbbüsü ilə baş tutub.

Müdafiə Nazirliyi xəbər verir ki, tərəflər ölkələrimiz arasında hərbi və hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və perspektivlərini müzakirə edib, regionda cərəyan edən proseslər və təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıblar.

## Tankçılarımız Vətənimizin müdafiəsində əzmlə dayanıblar

2020-ci ilin 27 sentyabr tarixində Azərbaycan Ordusunun müasir silah və texnika ilə təchiz olunmuş qoşun növlərindən hesab edilən Quru Qoşunlarının bölmələri hərbi güc nümayiş etdirərək, düşmənin 30 ilə yaxın müddətdə möhkəmləndirdiyi “Ohanyan səddini” yardı. Düşməni dərinliklərə doğru təqib etdi, döyüşə-döyüşə müxtəlif manevrləri dəf edərək azad olunmuş kənd, qəsəbə və rayonlarda güclü müdafiə sistemi qurdu. Bununla da Azərbaycan Ordusu hansı qüdrətə və hərbi üstünlüklərə malik olduğunu döyüş meydanında sübut etdi. Gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun silahlanmasına daxil edilmiş "Döyüş aslanı" adlandırılan dünyanın ən müasir tankları Ali Baş Komandanın rəhbərliyi ilə və "İrəli!" əmriylə Vətən müharibəsində düşmən üzərinə şığıdı. Tarixi torpaqlarımızın işğaldan azad olunmasında tankçılarımız fədakarlıq, vətənpərvərlik nümunələri, yüksək döyüş bacarıqları göstərərək adlarını şanlı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazdılar.

"Döyüş aslanı" adlandırılan bu zirehli texnika ilk dəfə Birinci Dünya müharibəsinin (1914-1918-ci illər) hərb meydanında görünüb. Düşməni, uğultusu qorxudan dəmir atın yaradılması dünya müharibələri tarixində böyük hadisə idi. Təbii ki, zaman keçdikcə hər bir silah və texnika da təkmilləşdirilir, dağıdıcılıq qabiliyyəti, gücü daha da artırılır. Bəşəriyyətin ən dəhşətli və qorxulu müharibəsi hesab edilən İkinci Dünya müharibəsində dövrün ən dağıdıcı silah və texnikalarından istifadə edilib. Həmin silah və texnikalar daha dağıdıcı gücə malik idi. İkinci Dünya müharibəsi cəbhələrində də "Döyüş aslanı" əsas hərbi qüvvələrdən biri olub. Tankın təkcə atəşlə məhv etməyi deyil, hətta onun uğultusu belə faşist işğalçılarını qorxuya salır, vahimə yaradırdı.



(Ardı 6-cı səhifədə)

## Vətənə sədaqətlə xidmət etmək müqəddəs amaldır

Son illərin ədalət və haqq savaşının qalibi olan, Şanlı Azərbaycan Ordusunda xidmət edən igid zabit, gizir, müddətdən artıq və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularımız ərazi bütövlüyümüzün, suverenliyimizin təmin olunmasında, müstəqilliyimizin qorunmasında mühüm pay sahibidirlər. Zabit Cavid Eminov da bu hərbçilərimizdən biridir.

Cavid Oqtay oğlu Eminov 22 noyabr 1987-ci ildə Zərdab rayonunun İsaqbağı kəndində anadan olub. 1994-cü ildə həmin kəndin S.Ə.Şirvani adına orta məktəbinə gedib. 2005-ci ildə həmin məktəbdə təhsilini başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. 2009-cu ildən 2010-cu ilə qədər Silahlı Qüvvələrin (indiki Azərbaycan Ordusunun) Təlim və Tədris Mərkəzində “Zabit ixtisas kursu”nu keçərək öz hərbi biliklərini daha da möhkəmləndirib.

(Ardı 5-ci səhifədə)

## 31 il Türkiyə Silahlı Qüvvələrində xidmət edən azərbaycanlı polkovnik Məmməd Ağpolad



Məmməd Rza oğlu Rzayev 1897-ci ildə Gəncə şəhərində İmamalı məhəlləsində anadan olub. 1914-cü ildə Gəncə şəhər məktəbini bitirdikdən sonra Tiflis şəhərində Mühəndislik məktəbinə daxil olub. 1917-ci ildə son sinifdə oxuyarkən Oktyabr inqilabı zamanı çıxan qarışıqlıqlardan sonra könüllü olaraq hərbi xidmətə gedib. 8 ay xidmət etdikdən sonra 1918-ci ilin mayında Gəncədə açılan hərbi məktəbə qəbul olub.

1918-ci ilin noyabrında zabit olaraq Gəncə şəhərində yerləşən 1-ci Topçu Tuqayının 1-ci diviziyasının 1-ci batareyasına təyin edilib. Hərbi xidmətə başladıqdan sonra Qarabağa göndərilib. Qarabağda və Zəngəzurda dinc əhaliyə qarşı qırğınlar törədən erməni-daşnak qüvvələrinə qarşı Abdallar və Xanlıq kəndi istiqamətində gedən döyüşlərdə iştirak edib. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə 1919-cu il martın 22-də "kiçik leytenant" rütbəsi ilə təltif edilərək taqım komandiri vəzifəsinə təyin olunub. Həmin ilin avqustunda Məmməd Rzayev vaxtından əvvəl "leytenant" rütbəsinə yüksəldilərək batareya komandiri təyin olunub.

(Ardı 8-ci səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq

(Əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı açılış mərasimində çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli xanımlar və cənablar, sabahınız xeyir. Bütün qonaqlarımızı salamlayır və forumun bütün iştirakçılarına xoş gəlmisiniz deyirəm. İlk növbədə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, onun həmsədrləri xanım Vike-Freyberqaya və cənab Serageldinə, İdarə Heyətinin üzvlərinə, həmçinin Mərkəzin bütün kollektivinə bu illər ərzində nümayiş etdirdikləri yüksəksəviyyəli fəaliyyətə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi geniş spektrli məsələləri əhatə edən və çox yüksək beynəlxalq nüfuza malik aparıcı beynəlxalq qurumlardan biridir.

Mərkəzin fəaliyyətini il ərzində diqqətlə izləyirəm, bir qlobal forumdan digərinə keçərkən görürəm ki, fəaliyyət sahəsi getdikcə genişlənir. Təmaslar son dərəcə fəaldır və dəyişən beynəlxalq vəziyyətə uyğun yeni yanaşmaların işlənib hazırlanmasına verilən töhfə həqiqətən böyük qiymətə layiqdir. Qlobal Bakı Forumuna gəldikdə isə bu, çox nüfuzlu beynəlxalq tədbirdir.

Deyərdim ki, qlobal miqyasda bu forum əsas beynəlxalq forumlarla eyni səviyyədədir: iştirakçıların - prezidentlərin, baş nazirlərin, parlament spikerlərinin, tanınmış ictimai fiqurların, diplomatların, işgüzar dairələrin və vətəndaş cəmiyyəti nümayəndələrinin təcrübəsi baxımından olduqca yüksək səviyyədədir. Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir mübadiləsi aparır və təcrübə paylaşırlar, qeyd etdiyim kimi, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün ideyalar irəli sürürlər.

Builki forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik.

Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, həlelik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünü müdafiə hüququ çərçivəsində həyata keçirdik.




Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu mənfi təcrübə olmuşdur.

Daha sonra 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

Üçüncü təcrübə isə sülh təcrübəsidir - sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur.

Zənnimcə, dünyada hazırda baş verənlər - yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu, həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur.

İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur.

Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Onlar üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başladıq və bununla da göstərdik ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ Müharibəsi və daha sonra anti-terror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk.

Bəzən bunu etmək zəruridir, xüsusilə də əmin olduğunuz halda ki, haqlısınız. O zaman sizi əngəlləməyə çalışanları, maraqlarınıza xələl gətirmək istəyənləri nəzərə almamalısınız. Həmçinin hesab edirəm ki, bu, müharibə aparanlarla paylaşa biləcəyimiz daha bir təcrübədir.

Biz Ermənistanla sülhə nail olduq, - biz deyərkən Azərbaycanı nəzərdə tuturam, - israr etdik ki, bunu vasitəçilərsiz təmin edək. Özlərini Minsk qrupu adlandıran vasitəçilərin 28 illik fəaliyyəti bir fəlakət idi. Həmsədrlərin məqsədi münaqişəni dondurmaq, onu əbədiləşdirmək və hər iki ölkəyə qarşı təzyiq aləti kimi istifadə etmək idi. Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda - heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq. Beləliklə, bu bir təcrübədir və bu, sadəcə nəzəriyyə deyil, bu, bizim yaşadığımız, indi isə şahid olduğumuz bir reallıqdır. Hesab edirəm ki, mövcud münaqişələrin həlli istiqamətində çalışarkən bu məsələ mütləq nəzərə alınacaq.

Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırıla bilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir.

Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin - neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq. Keçən il - düz bir il əvvəl görüşdüyümüz zaman bizdən qaz alan ölkələrin sayı 12 idi. Bir il ərzində bu göstərici 16-ya yüksəldi və onların hamısı Azərbaycandan qazı boru kəmərləri vasitəsilə alır. Beləliklə, boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək.

Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır.

İndi isə biz mövcud dəhlizlərin yükaşırma qabiliyyətinin artırılmasına əlavə vəsait yatırırıq, çünki Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh edildikdən sonra Orta Dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini - əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq

**(Əvvəli 2-ci səhifədə)**

Bu yeni fürsətdən həqiqətən yararlanmaq olar, çünki biz Azərbaycanın iki hissəsini nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Artıq qeyd etdiyim kimi, yeni istiqamət yaradacağıq, bu isə bir çox ölkə üçün faydalı olacaq. Vaxtınızı çox almamaq üçün çıxışımı burada yekunlaşdıracağam, yalnız təcrübəmizin olduğu məsələlərə və bu gün beynəlxalq gündəmin birnömrəli mövzularına toxunmaq istədim.

Son olaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığımıza qayıdaraq, bir daha onları təbrik etmək və COP29-un uğurlu keçirilməsinə verdikləri töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ondan çox panel müzakirəsi təşkil etmiş, çoxsaylı müzakirələrdə iştirak etmiş və COP29-un uğuruna fəal töhfə vermişdir.

Bu il biz daha bir vacib qlobal beynəlxalq tədbir - Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini və bütün kollektivini Forumda fəal iştiraka dəvət edirəm. Ümid edirəm ki, bir neçə aydan sonra Bakıda sizlərlə görüşüb dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi kimi ortaq məqsədimizə dair müzakirələrimizi davam etdirəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.






* * *

Daha sonra çıxış edən Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa Forumun dünyanın qlobal çağırışları ilə bağlı fikir mübadiləsi aparılmasına geniş imkan yaratdığını qeyd edərək deyib: "İstərdim, mən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasını salamlama fikirlərinə qatılım və Sizin burada olmağınızdan məmnunluğumu ifadə edim. Eyni zamanda, biz Azərbaycan Respublikasına təşəkkürümüzü bildiririk ki, artıq 13-cü dəfədir bu Foruma ev sahibliyi edir və Prezident İlham Əliyev də çıxışında bu tədbirin əhəmiyyətini qeyd etdi. Xatırlayıram ki, bir çox il əvvəl biz bu təşəbbüsə başlayanda ideya ilə Prezident qarşısında çıxış etdik və Prezident Nizami Gəncəvinin doğum günü ilə əlaqədar tədbirə dəvət etdi və hər il bu tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etdi, dedi ki, Azərbaycan bu tədbirə ev sahibliyi etməlidir. Cənab Prezident bizim o vaxt keçirdiyimiz tədbirdən daha böyük tədbirlərin Azərbaycanda keçirilməsinin təşəbbüsünü irəli sürdü və hazırda bu gün miqyas doğrudan da böyükdür".

**AZƏRTAC-ın materialları əsasında**

## Heydər Əliyev adına Hərbi İnstitutda qanvermə aksiyası keçirilib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda könüllü qanvermə aksiyası təşkil olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə hərbi institutun 100-ə yaxın kursantı, 30-a yaxın professor-müəllim və zabit heyəti iştirak edib.

Aksiya zamanı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində Respublika Qan Bankının tibb briqadası donorların sağlamlıqlarını yoxladıqdan sonra onlardan qan götürüb.

Götürülən qan nümunələri müayinə edildikdən sonra sertifikatlaşdırılaraq irsi qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsində istifadə olunması üçün aidiyyəti üzrə təhvil veriləcək.



Qanvermə aksiyasının əsas məqsədi talassemiya və hemofiliya, leykoz və digər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatının yaradılması, cəmiyyətdə və orduda könüllü və təmənnasız qan donorluğu ənənələrinin qorunub saxlanması, o cümlədən qan və qan komponentləri ehtiyatının davamlı şəkildə təmin olunmasıdır.

*Gənc zabitlərimiz*

## Yaxşı həkimin rəyi xəstəyə məlhəmdir

*Pis peşə yoxdur, gərək insan seçdiyi peşənin peşəkarı olsun. Tibb xidməti baş leytenantı Səlcuq Kərimov orta məktəbdə oxuyarkən böyüyəndə mütləq həkim olacağını demişdi. Özü də hərbi həkim. Bütün varlığı ilə çalışırdı ki, qarşıya qoyduğu məqsədə nail olsun. Valideynləri də onun bu arzusunu bəyənmişdilər.*

Səlcuqun yaxşı oxuması və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə qəbul olması üçün gərəkli olan köməyi də göstərmişdilər. Səlcuq da ata-anasının çəkdiyi zəhməti itirmədi, əksinə, onları tələbə adı qazanmaqla sevindirmişdi. Gələcəkdə adlı-sanlı həkim olacağını da demişdi.

Tibb xidməti baş leytenantı Səlcuq Elçin oğlu Kərimov Naxçıvan şəhərində orta məktəbi bitirəndən sonra 2015-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə yüksək balla qəbul olub. Təhsil aldığı dönəmdə İkinci Qarabağ müharibəsi başlayıb. Gedən döyüşlərdə yaralı döyüşçülərə ilk tibbi yardım göstərib. Neçə-neçə yaralı döyüşçünün həyatını xilas edib. Döyüş meydanında yaralılara ilkin tibbi yardım düzgün göstərilərsə, onların tez sağalıb sıralara qayıtma ehtimalı da çox olur. Səlcuq da döyüşçülərin sağalması üçün bilik və bacarıqlarından məharətlə istifadə edib. Onlara yeni həyat, yeni ömür bəxş etmək üçün bütün varlığı ilə çalışıb.



Müharibə bitəndən sonra təhsilini davam etdirmək üçün universitetə qayıdıb. O, bu gün də hərbi qulluqçuların sağlamlığının keşiyində dayanır.

Tibb xidməti baş leytenantı Səlcuq Kərimov 2021-ci ildə gənc həkim kimi "N" hərbi hissəsində hərbi xidmətə başlayıb. İstənilən xəstəyə və ya yaralıya vaxtında göstərilən ilkin tibbi yardım onun həyatının xilası deməkdir.

Gənc həkim Səlcuq Kərimov işinə məsuliyyətlidir. Müraciət edən hərbi qulluqçuları diqqətlə müayinə və müalicə edir.

Səlcuq həkimin qarşısında daha mühüm və perspektivli xidmət illəri dayanır. Hərbi qulluqçuların sağlamlığı naminə daha bilikli və bacarıqlı həkim olmağın məsuliyyətini anlayan gənc zabit, bu sahədə özünü təkmilləşdirmənin vacibliyini də bizə bildirdi. Səlcuq deyir ki, boş vaxtlarında tibbi ədəbiyyat oxuyur. Yiyələndiyi ixtisas üzrə təcrübəsini artırır. Bu cür çalışqanlığı gələcəkdə peşəkar həkim kimi formalaşıb xidmətinə davam edəcəyinə şübhə doğurmur.

"Əsgərlərdə yaz-payız aylarında havanın dəyişməsi ilə əlaqədar kəskin respirator xəstəliklərinin yayılması ehtimalı yüksəlir. Bunun da qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görülür. El arasında qrip kimi tanınan bu xəstəliyin növlərinin çox olması şəxsi heyət arasında yoluxmanın da artacağına səbəb ola bilər. Başlıca səbəb odur ki, həkimlərin ciddi səyi nəticəsində bu və ya digər xəstəliklərin qarşısı alınır. Əsgərlər çöl təlim-məşqlərində sağlam şəkildə müntəzəm iştirak edirlər. Bu da həkimlərin komandirlərlə birgə apardıqları profilaktik tədbirlərin nəticəsidir", - deyə tibb xidməti baş leytenantı Səlcuq Kərimov bildirdi.

Səlcuq həkim xidmətə başladığı gündən qarşısına nümunəvi, bacarıqlı, vətənpərvər hərbçi olmağı məqsəd qoyub. O, bu məqsəd, bu amal uğrunda xidmət edir. Ümid edirik ki, Səlcuqun daha böyük uğurlarını gələcək xidmətində görəcəyik. Bunu indidən görmək olur. Məsuliyyəti, savadı və alicənablığı ilə işinə yanaşan insanın başının hər zaman uca olacağına əminik.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Türkiyə Ordusunun Quru Qoşunları komandanı ƏÜO-da olub

*Martın 11-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib.*





Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Naxçıvan şəhərinin baş meydanında ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdiriblər.

Nümayəndə heyəti, həmçinin Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan abidəsini də ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Səfər çərçivəsində qonaqlar Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahında olublar. ƏÜO komandanı general-leytenant Kənan Seyidov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Metin Tokel ilə görüşüb, protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb. Görüş zamanı tərəflər qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Brifinq zalında ƏÜO-nun yaranma tarixi, keçdiyi inkişaf yolu, fəaliyyəti, həyata keçirilən islahatlar və qarşıda duran məqsədlər barədə məlumat verilib.

Ordu generalı Metin Tokel bölgədə sabitliyin gücləndirilməsi və təhlükəsizliyin tam təmin edilməsi məqsədilə Türkiyənin daim Azərbaycanın yanında olduğunu və tarixi Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq istənilən hərbi yardımı göstərməyə hazır olduqlarını bildirib. Ordu generalı iki ölkə arasındakı münasibətlərin strateji və hərbi tərəfdaşlıq baxımından möhkəm bir təmələ sahib olduğunu söyləyib.

Sonda birgə hərbi təlimlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılması ilə bağlı məsələlər müzakirə olunub.





## Prezidentin köməkçisi: Azərbaycan çoxtərəfliliyi dəstəkləyir

Azərbaycan çoxtərəfliliyi dəstəkləyir, çünki bu, ölkələrə masa arxasında səs imkanları yaradır, qlobal və regional qərarların verilməsinə yol açır. Bu səbəbdən Azərbaycan üçün çoxtərəflilik böyük əhəmiyyətə malikdir. Bu, yalnız müxtəlif qruplarda iştirakla məhdudlaşmır, həm də real fəaliyyətlərdə özünü göstərir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Böhran içində çoxtərəflilik: Qlobal əməkdaşlığa yenidən baxış" mövzulu paneldə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev səsləndirib.

"Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürdükdə müəyyən fikirlər və tənqidlər səslənirdi ki, bu qurum artıq köhnəlmiş mexanizmdir və aktuallığını itirib. Lakin Azərbaycanın sədrlik illəri göstərdi ki, Qoşulmama Hərəkatı çoxölçülü regional əməkdaşlıq və qarşılıqlı fəaliyyətə töhfə verə bilən institutdur. Digər nümunə isə COP29-la bağlıdır. COP29 və iqlim diplomatiyası Azərbaycan qarşısında yeni çağırışlar yaradıb, biz effektiv sədrliyi təmin edə bildiyimizi sübut etmişik. Hətta Azərbaycanın COP29 sədrliyi çərçivəsində karbon bazarı, İtki və Zərər Fondu və digər məsələlərlə bağlı mühüm qərarlar qəbul olunub", - deyə Hikmət Hacıyev vurğulayıb.

## Türkiyənin ordu generalı: Naxçıvana edilən dron hücumu narahatlıq doğurur





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səlahiyyətli nümayəndə Ceyhun Cəlilov görüş zamanı Azərbaycan və Türkiyə arasında dərin tarixi köklərə, ortaq dəyərlərə və qarşılıqlı etimada əsaslanan münasibətlərin dinamik inkişaf etdiyini qeyd edib. Vurğulayıb ki, müstəqil Azərbaycan bu gün müzəffər lideri, güclü dövləti, qüdrətli ordusu və vətənpərvər xalqı ilə dünya arenasında fəxrlə addımlayır. Azərbaycan və Türkiyənin "Bir millət, iki dövlət" anlayışı ilə əsrlərə dayanan dostluq və qardaşlıq münasibətləri siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə dərinləşməkdədir.

Ceyhun Cəlilov bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi dövründə, eləcə də bütün sahələr üzrə Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstək ölkəmizdə yüksək qiymətləndirilir.

Səlahiyyətli nümayəndə Naxçıvan Beynəlxalq Hava Limanının dron hücumuna məruz qalması nəticəsində Naxçıvan-Bakı və əks istiqamətlərdə uçuşların müvəqqəti dayandırılmasına da toxunub. Qeyd edib ki, muxtar respublika ilə ölkəmizin əsas hissəsi arasında sərnişin daşımalarının fasiləsizliyini təmin etmək məqsədilə 5-9 mart tarixlərində Bakıdan Türkiyənin İğdır şəhərinə aviareyslərin təşkil olunması qardaş ölkə ilə dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir.



Ceyhun Cəlilov, həmçinin Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında Sədərək-Dilucu gömrük-keçid məntəqəsi vasitəsilə gediş-gəlişin təmin olunmasında mühüm rol oynayan, "Bir millət, iki dövlət" kəlamının rəmzinə çevrilən "Ümid" körpüsünün Ümummilli Lider Heydər Əliyevin və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin iştirakı ilə istifadəyə verildiyini xatırladıb.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı ordu generalı Metin Tokel strateji müttəfiqliyə əsaslanan hərbi əməkdaşlığın daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan Ordusunun davamlı inkişaf etdiyini və bunun qardaş Türkiyədə böyük məmnunluq doğurduğunu qeyd edib.

Metin Tokel Naxçıvan Muxtar Respublikasına dron hücumunun narahatlıq doğurduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan-Türkiyə strateji əməkdaşlığının müxtəlif istiqamətləri müzakirə olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Şəhid İntiqam Abdullayevin xatirəsi yad edildi



İkinci Qarabağ müharibəsində ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşərək şəhidlik zirvəsinə ucalan İntiqam Allahverdi oğlu Abdullayevin xatirəsi Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Düylün kəndində keçirilən anım tədbirində ehtiramla yad olundu.

Tədbirdə Ordubad rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, rayonun idarə, müəssisə və təşkilatlarının əməkdaşları, şəhid ailələri, müharibə iştirakçıları, hərbçilər və kənd ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

Əvvəlcə şəhid İntiqam Abdullayevin məzarı ziyarət edilərək üzərinə tər çiçəklər düzüldü, ruhuna dualar oxundu.

Çıxış edənlər şəhidin həyatı və şərəfli döyüş yolu haqqında danışaraq bildirdilər ki, torpaqlarımızın azadlığı və Vətənimizin suverenliyi uğrunda canlarından keçən oğullarımızın xatirəsi xalqımız tərəfindən daim ehtiramla yad olunur. Vurğulandı ki, şəhid ailələri və müharibə iştirakçıları dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı ilə əhatə olunublar.

Bildirildi ki, şəhidlərimizin göstərdiyi igidlik gələcək nəsillər üçün əsl vətənpərvərlik nümunəsidir. Onların şərəfli döyüş yolu gənclərin Vətənə sevgi və sədaqət ruhunda tərbiyə olunmasında mühüm rol oynayır.

Tədbirin sonunda orta məktəb şagirdləri tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər səsləndirildi.

Qeyd edək ki, İntiqam Abdullayev 12 avqust 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Düylün kəndində anadan olub. Orta təhsilini şəhid Surxay Rzayev adına Düylün kənd tam orta məktəbində alıb. 2013-cü ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olaraq gələcək həyat yolunu Vətənə xidmətə həsr edib.

2016-cı ildə liseyi idman - voleybol üzrə fərqlənmə ilə bitirən İntiqam Abdullayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olunub. Təhsil aldığı illərdə həm hərbi hazırlığı, həm də idman sahəsində qazandığı uğurları ilə seçilib. Voleybol üzrə müxtəlif yarışlarda iştirak edərək dəfələrlə fərqlənib, fərdi və komanda şəklində medallar, fəxri fərmanlar qazanıb. Türkiyə və Gürcüstanda keçirilən voleybol yarışlarında komandası ilə ard-arda iki dəfə qalib olub və sonradan həmin komandanın kapitanı kimi çıxış edib.

İdman sahəsində olduğu kimi, hərbi sahədə də nümunəvi xidmət göstərən İntiqam Abdullayev 2020-ci ildə Hərbi İnstitutu "Motoatıcı" ixtisası üzrə bitirib və "leytenant" hərbi rütbəsi ilə xidmətə başlayıb. O, qısa müddət ərzində bacarığı, intizamı və liderlik keyfiyyətləri ilə seçilib.



Xidmətinin cəmi ikinci ayında "N" hərbi hissəsində "Ən yaxşı taqım komandiri" adına layiq görülən leytenant İntiqam Abdullayev fəxri fərman və qiymətli hədiyyə ilə mükafatlandırılıb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılan İntiqam Murovdağ istiqamətində gedən ağır döyüşlərdə şücaət göstərərək Vətən torpaqlarının azadlığı uğrunda mərdliklə vuruşub. 2 oktyabr 2020-ci ildə Murovdağ uğrunda gedən döyüşlərdə şəhid olub.

Şəhidin cənazəsi bir müddət düşmən tərəfində qaldığından o, uzun müddət itkin düşmüş hesab olunub. Şəhadətindən 165 gün sonra onun şəhidlik xəbəri ailəsinə çatdırılıb. İgid zabitimiz Ordubad rayonunun Düylün kəndində dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən İntiqam Abdullayev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid İntiqam Abdullayev kimi cəsur oğullarımızın xatirəsi xalqımızın yaddaşında daim yaşayacaq, onların göstərdiyi şücaət isə Vətənə sədaqətin ən parlaq nümunəsi kimi gələcək nəsillərə örnək olacaq.

**Bəxtiyar ƏLİYEV**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

## Türkiyə MN: "İncirlik" hərbi hava bazası ölkəmizə məxsusdur

Türkiyə Milli Müdafiə Nazirliyinin (MMN) bəyanatında bildirilib ki, "İncirlik" bir türk hərbi bazasıdır.

AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Adanadakı "İncirlik" hərbi hava bazası ilə bağlı nazirliyin açıqlamasında qeyd olunub: "İncirlik" Türkiyə bazasıdır. Eskişehirdə yerləşən Hava Qüvvələri Komandanlığı nəzdində fəaliyyət göstərən 10-cu əsas reaktiv baza komandanlığımız Adanadakı "İncirlik"də yerləşir. Burada F-16 eskadrilyamız, tankerlərimiz və PUA-larımız yerləşir. Bütün obyektlər və mülkiyyət Türkiyə Respublikasına məxsusdur. Bazanın komandiri türk briqada-generalıdır. Orada Amerika əsgərlərinin olması onun ABŞ hərbi bazası olması demək deyil. Bu bazada İspaniya, Polşa və Qətər hərbi qulluqçuları da var".

Türkiyə MMN, həmçinin Rusiyadan alınan S400 zenit-raket kompleksi ilə bağlı da açıqlama verib. Bəyanatda Türkiyənin hava və raketdən müdafiə fəaliyyətlərinin təhdid qiymətləndirmələri və əməliyyat ehtiyaclarına uyğun olaraq çoxqatlı bir struktur daxilində aparıldığı və ən uyğun müdafiə elementinin döyüş qaydaları və mövcud əməliyyat vəziyyəti nəzərə alınmaqla müəyyən edildiyi qeyd olunub.

Türkiyənin NATO-nun inteqrasiya olunmuş hava və raketdən müdafiə sisteminin bir hissəsi olduğu da qeyd edilən bəyanatda bildirilib: "Bu sistem erkən xəbərdarlıq sensorlarından, komanda və idarəetmə sistemindən və tutucu raketlərdən ibarətdir. Ballistik raket aşkar edildikdə, sistem çox qısa cavab müddəti səbəbindən avtomatik olaraq ən uyğun və sürətli tutucu seçir və atəş açır. Ölkəmizə yönəlmiş ballistik raket təhdidinə qarşı ən uyğun və effektiv müdafiə elementləri aktivləşdirilib".

Milli Müdafiə Nazirliyi Malatya vilayətində yerləşdirilən "Patriot" sistemləri ilə bağlı da şərh verib. ABŞ-İsrail və İran arasında davam edən münaqişə barədə sualı cavablandıran nazirliyin sözçüsü admiral Zeki Aktürk İrandan müxtəlif vaxtlarda atılan iki ballistik raketin NATO hava və raketdən müdafiə elementləri tərəfindən zərərsizləşdirildiyini xatırladıb. O bildirib ki, Türkiyə hava məkanının və vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün görülən milli tədbirlərə əlavə olaraq, NATO müttəfiqləri ilə məsləhətləşmə mexanizmləri də effektiv şəkildə aktivləşdirilib.

Nazirliyin sözçüsü vurğulayıb: "Bu kontekstdə NATO Müttəfiq Hava Komandanlığı - Ramşteyn (Almaniya) tərəfindən təyin edilmiş "Patriot" sistemi hava hücumundan müdafiə arxitekturasının tamamlayıcı elementi olaraq Malatyaya yerləşdirilir. NATO müttəfiq ölkələrin hava məkanlarını və ərazilərini qorumaq iradəsinə malik bir təhlükəsizlik ittifaqıdır. Geostrateji mövqeyi, güclü ordusu və Alyansın cənub-şərq cinahında mühüm rolu ilə Türkiyə bu strukturun ən vacib elementlərindən biridir. Bu addımlar müdafiə, çəkindirmə və müttəfiq həmrəyliyi anlayışına uyğun olaraq, həm Türkiyənin, həm də NATO-nun ortaq təhlükəsizliyini gücləndirməyi hədəfləyir".

*Medallı igidlərimiz*

## Vətənə sədaqətlə xidmət etmək müqəddəs amaldır

**(Əvvəli 1-ci səhifədə)**

2010-cu ildən bu günə qədər öz ixtisası üzrə müxtəlif vəzifələrdə xidmət edən zabit Cavid Eminovla həmsöhbət olub, onun fikirlərini qələmə aldıq.

"Gənc yaşlarımdan bu peşəyə olan marağım həyat yolumu təsdiqlədi. İllərcə ürəyimdə böyütdüyüm arzuma çatmaq üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olmaq üçün imtahan verdim. İmtahan nəticələri elan ediləndə çox sevinmişdim. Çoxdan arzusunda olduğum peşənin, müqəddəs vəzifənin sahibi olacağımın həm qürurunu, həm də məsuliyyətini dərindən dərk edirdim. Xidmət etdiyim hərbi hissələrdə həm şəxsi heyətin hazırlığı, həm də onların vətənpərvərlik ruhunun artırılması üçün əlimdən gələni etmişəm. İştirak etdiyimiz təlimlərdə taqımdan tutmuş hərbi hissə səviyyəsinə qədər şəxsi heyətin əldə etdiyi uğurları əməyimin və amalımın nəticəsi bilmişəm. Artıq 20 ildən artıqdır ki, üzərimdə hərbi mundir daşıyıram. Şükürlər olsun ki, bu formada haqq mübarizəmizin də iştirakçısı olmuşam", - zabit dedi.

O, 44 günlük Vətən müharibəsi ilə bağlı xatirələrini də bizimlə bölüşdü: "2020-ci il sentyabrın 27-də başlayan



haqq savaşımız zamanı ön xətt hərbi hissələrimizdən birində tabor komandiri vəzifəsində xidmət edirdim. Taborumuzun ilkin tapşırığı aktiv müdafiənin təmin edilməsi idi. Əməliyyatın planlaşdırılması və təşkili, idarə etmənin keçirilməsi özü böyük məsuliyyətdir. Çünki müharibənin düzən ərazidə və dağlıq relyefdə aparılmasının hər birinin özünə görə çətinlikləri vardır. Şükürlər olsun ki, müharibənin birinci günündən son gününə qədər üzərimizə qoyulan tapşırıqlar tərəfimizdən uğurla icra olundu. 2022-ci ildə "Qisas" əməliyyatı zamanı əsas vəzifələrdən biri Laçın istiqamətindəki əlverişli yüksəkliklərin düşməndən azad edilməsi idi. Bir gün ərzində hərbi hissəmiz tərəfindən 30-dan çox hakim yüksəklik nəzarətə götürüldü. Bu yüksəkliklərin azad olunmasının xüsusi strateji əhəmiyyəti var idi. Qırxqız, Sarıbaba, Laçın dağı və digər yüksəkliklərin azad olunması ilə düşmənin qanunsuz silahlı birləşmələrinin yerləşdiyi tarixi ərazilərimizə nəzarəti daha da gücləndirdik və təminat yollarının izlənilməsi bölmələrimizin üstünlüyünü daha da artırdı. Və nəhayət, 2023-cü ildə də hərbi hissənin tərkibində düşmənə qarşı aparılan antiterror əməliyyatının da iştirakçısı olmuşuq. Aktiv müdafiə tapşırığı ilə yanaşı, aidiyyəti bölmələrin dəstəklənməsinə də cəlb olunmuşuq. O günlərin hər biri bir ömrə bərabər günlərdir. Hər bir Azərbaycan əsgəri yaxşı bilirdi ki, tarixi torpaqlarımızı düşməndən təmizləmək bizim müqəddəs vəzifəmizdi və bu vəzifənin öhdəsindən yüksək vətənpərvərlik və peşəkarlıqla gəlməli idik. Bu gün torpaqlarımız azaddır, şəhidlərimizin qisası alınıb, xalqımızın qəlbindəki yurd həsrəti başa çatıb", - deyən zabitlə söhbət əsnasında öyrəndik ki, iştirak etdiyi 44 günlük Vətən müharibəsində və ondan sonrakı əməliyyatlarda qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Şücaətə görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Tankçılarımız Vətənimizin müdafiəsində əzmlə dayanıblar

**(Əvvəli 1-ci səhifədə)**

Tək bir faktı misal gətirmək bəs edər ki, İkinci Dünya müharibəsində hərb elminin mahir bilicisi kimi şöhrət qazanmış həmyerlimiz 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov öz dəmir atı ilə faşist işğalçılarına qarşı mübarizədə şanlı döyüş yolu keçərək, tarixi əhəmiyyətli həlledici döyüşlərdə tank hücumunu idarə edib. Eyni zamanda, Vətənimizin başı üzərini qara buludlar alanda erməni hərbi birləşmələrinə qarşı istər Birinci Qarabağ müharibəsində, istər Aprel döyüşlərində, istər 44 günlük Vətən müharibəsində və istərsə də digər əməliyyatlarda rəşadətli Azərbaycan Ordusunun yüksək hazırlıqlı tank bölmələri igidlik, peşəkarlıq nümunələri göstərərək "Döyüş aslanı"nın gücünü bir daha təsdiqləyiblər.

Tank hərbi hissəsinin Təlim-məşq trenajorlar şəhərciyindəki məşq qurğularında tank heyətlərinə, öyrəncilərə peşəkar zabitlər tərəfindən nəzəri-praktiki dərslər keçirilirdi. Peşəkar tankçı, ehtiyatda olan polkovnik-leytenant Vasif Məlikov burada keçirilən dərslərin aparıcı müəllimlərindən biridir. Ona "Trenajor məşq qurğularının imkanları hansılardır?", - deyə sualla müraciət etdik. Ehtiyatda olan zabit Azərbaycan Ordusunda zirehli döyüş maşınlarının trenajor məşq qurğularının təyinatı barədə bilgilərindən ətraflı danışdı: "Döyüş maşınlarının heyəti praktiki olaraq atışlara, sürücülük məşğələlərinə cəlb olunmadan və yaxud döyüşlərdə maşınların tətbiq etmədən öncə təcrübələrini məşq qurğularında qazanmış olur. Ondan sonra praktiki məşğələlərə başlayır. Trenajor məşq qurğularının məqsədi ondan ibarətdir ki, öyrəncilər nəzəri bi-



likləri mənimsədikdən sonra trenajor məşq qurğularına buraxılırlar və öyrəndikləri çalışmaları orada praktiki olaraq yerinə yetirirlər. Canlı texnikalardan heç bir fərqi olmadan məşq qurğularında istənilən hava şəraiti (məsələn, küləkli) verilməklə, istənilən relyef şəraitini (məsələn, enişli-yoxuşlu) yaratmaqla praktiki olaraq çalışmaların yerinə yetirilməsindən seçilmir. Öyrəncilər və yaxud hərbi xidmətdə olan şəxsi heyət trenajor məşq qurğularından istifadə etdiyi zaman həm də canlı texnikada olan yanacaq sürtgü materiallarının istismarına qənaət edilmiş olur. Həmçinin texnikaların saxlanmasına, qorunmasına şərait yaradılır. Trenajor məşq qurğularının simulyatorlarında məşq etməklə öyrəncilər təcrübəni qazanmış olurlar. Bundan sonra praktiki olaraq poliqonlarda, atış sahələrində, sürücülük sahələrində, eyni zamanda, döyüşlərdə təcrübəli şəkildə öz texnikalarından canlı olaraq istifadə edərək istənilən nəticəni qazanırlar. Şəxsi heyət ən əvvəl döyüş maşınlarının quruluşunu, istismarını öyrəndikdən sonra sürücülük və atış məşğələlərinə cəlb olunur. İlk olaraq trenajor məşq qurğularında da atış və sürücülük öyrədilir. Ümumilikdə texnikanın öyrənilməsi praktiki olaraq digər maşınların quruluşunun öyrənildiyi siniflərdə texnika üzərində öyrənilir. Praktiki olaraq sürücülük məşğələlərini keçib müəyyən təcrübəni qazanandan sonra çöl və poliqon şəraitinə buraxılırlar. Eyni zamanda, qapalı təhlükəsiz bir şəraitdə ilkin vərdişlərə burada yiyələnməklə təcrübə toplanılır. Öyrəncilər burada hər detalı böyük həvəslə öyrənməyə çalışırlar".

Tankçılarımızın peşəkarlıqlarının artırılması barədə geniş məlumatlar verən ehtiyatda olan polkovnik-leytenant Vasif Məlikov onu da bildirdi ki, tank heyətləri çöl çalışmalarında praktik atışlarını, sürücülük vərdişlərini yoxlayırlar. Plana uyğun olaraq keçirilən çöl çalışmalarının əhəmiyyəti ondan ibarətdir ki, tankçılarımız qazandıqları vərdişləri daha da təkmilləşdirmək imkanı əldə edirlər.

"Tank bölmələri hansı imkanlara malikdir?" sualını V.Məlikov belə cavablandırdı.

- Ümumiyyətlə, tank bölmələri uzaq məsafələrə sürətli yürüş etmək, düşmənin müdafiə xəttini yararaq yüksək templə hücum etmək imkanlarına malikdir. Həm də tank bölmələri dayanmadan su maneələrini keçə, su altında hərəkət edə, bərə vasitələrindən istifadə etməklə güclü müdafiə mövqeyi qura, qətiyyətli əks-hücumu həyata keçirə bilərlər. Bütün bu imkanlar tankçıları yenilməz edir. Bölmələrimizin şəxsi heyətini yenilməz edən təkcə onların istifadəsində olan tanklar deyil, həm də onların yüksək mənəvi-psixoloji, ideoloji və fiziki hazırlıqlara malik olmalarıdır.

Trenajor məşq qurğularında dərsləri müşahidə zamanı öyrənirik ki, ordumuzun tank heyətləri dəfələrlə bir sıra dövlətlərin iştirakı ilə keçirilən Beynəlxalq Ordu Oyunları çərçivəsində "Tank biatlonu" müsabiqəsində, "Ən yaxşı heyət" yarışmasında uğurlu nəticələr qazanıblar. Hər il döyüş hazırlığı planına əsasən, ordumuzun tankçıları "Ən yaxşı tank bölüyü" adı uğrunda gedən yarışlarda da döyüş bacarıqlarını sınayırlar. Qürurverici məqam odur ki, daima döyüş bacarıqlarını artıran rəşadətli Azərbaycan Ordusunun yenilməz tankçıları respublikamızın ərazi bütövlüyünün, suverenliyinin tam təmin olunmasında misilsiz igidlik, qəhrəmanlıq nümunələri göstərdilər.

Tank komandiri gizir Hacı Qayımbəyov təlimlərdə, yarışlarda ən yüksək nəticələr qazanmaq üçün daima döyüş hazırlığını artırdığını dedi. "Tankçı peşəsinin sirlərinə təcrübəli, peşəkar komandirlərimin, təlimatçıların sayəsində dərindən yiyələnmişəm. Hərbi xidmətə başladığımız ilk günlərdə bəzən çətinliklərimiz olurdu. Amma bu gün heç bir çətinliklə rastlaşmırıq. Çünki mütəmadi olaraq keçirilən dərs, çalışma və təlimlərdə iştirak edirik. Qazandığımız bilik və təcrübə sayəsində istənilən döyüş tapşırığının öhdəsindən layiqincə gəlməyi bacarırıq".

Ordumuzun təcrübəli tankçılarından biri - ehtiyatda olan



baş gizir, hazırda Təlim-məşq trenajorlar şəhərciyinin baş təlimatçısı, Vətən müharibəsi iştirakçısı Xaqani Əliyev bildirdi ki, müharibədə qələbə qazanmaq üçün döyüşçü öz silahının və hərbi texnikasının sirlərinə dərindən yiyələnməli, onları həmişə döyüşə hazır vəziyyətdə saxlamalı və bacarıqla istismar etməlidir. Tankçı peşəsinə yiyələnmək istəyən hərbi qulluqçu - komandir, mexanik-sürücü, tuşlayıcı-operator "dəmir at"ın hər bir detalı barədə müfəssəl biliyə malik olmalıdır. Tank əsas döyüş texnikalarından biridir. Hər bir tankçı "dəmir atı"nı silib təmizləməli, texniki vəziyyətini daima yoxlamalı, hər an çıxışa hazır olub-olmadığını diqqətlə nəzərdən keçirməlidir.

Öyrənirik ki, Xaqani Əliyevin Azərbaycan Ordusunda 26 illik şərəfli xidmət yolu var. Füzuli, Cəbrayıl, Şuşa - Topxana meşəsi istiqamətində gedən ağır döyüşlərdə fəal iştirak edib. O, qazandığı zəngin təcrübəsini böyük həvəslə ordumuzun gənc tankçıları ilə bölüşür. Tankçılarımızdan aldığımız təəssüratlar həmişə olduğu kimi, bu gün də xoş və ürəkaçandır.

Şanlı Azərbaycan Ordusunun yenilməz tankçıları azad, firavan Vətənimizin müdafiəsində əzmlə dayanaraq, daima döyüş qabiliyyətlərini artırırlar.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Vətənə sədaqətin nümunəsi

Azərbaycan Ordusunun gücü yalnız müasir silahlarla deyil, həm də Vətənə sonsuz məhəbbətlə xidmət edən igid hərbi qulluqçuların iradəsi və sədaqəti ilə ölçülür. Bu gün ordumuzun sıralarında xidmət edən minlərlə peşəkar hərbçi arasında elələri var ki, onların həyat yolu, xidmətə münasibəti və döyüşlərdə göstərdikləri şücaət gənc nəsil üçün əsl örnəyə çevrilir. Belə hərbçilərdən biri də baş çavuş Anar Sabir oğlu Qəhrəmanovdur. Onun xidmət yolu Vətənə bağlılığın, məsuliyyətin bariz nümunəsidir.

Anar Qəhrəmanov 15 may 1983-cü ildə Sumqayıt şəhərində dünyaya göz açıb. Uşaqlıq illərini Azərbaycanın sənaye şəhərində keçirən Anar hələ məktəb illərindən intizamlı, zəhmətkeş və məqsədyönlü xarakteri ilə seçilib. O, Sumqayıt şəhər 35 saylı orta məktəbdə təhsil alarkən müəllimlərinin və sinif yoldaşlarının hörmətini qazanıb. Məktəb illərində vətənpərvərlik ruhunda böyüyən Anar üçün Vətənə xidmət hər zaman müqəddəs bir amal olub.

İllər keçdikcə Anarın Vətənə xidmət etmək arzusu daha da möhkəmlənib. Bu arzunun nəticəsi olaraq o, 2016-cı ildən etibarən Azərbaycan Ordusunun sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. Qısa müddət ərzində məsuliyyəti, hərbi intizamı yüksək olan hərbçi kimi tanınıb. Onun xidmət etdiyi kollektivdə hörmət qazanmasının əsas səbəbi təkcə peşəkarlığı deyil, həm də əsgərlərə qayğıkeş münasibəti, yoldaşlarına dayaq olmağı bacarmasıdır.

Baş çavuş Anar Qəhrəmanov hər zaman qarşıya qoyulan tapşırıqları dəqiq və məsuliyyətlə yerinə yetirərək komandanlığın etimadını qazanıb. O, xidmət etdiyi müddətdə gənc əsgərlərin hazırlanmasında da xüsusi rol oynayıb, onlara hərbi bilik və bacarıqlarını böyük səbr və diqqətlə aşılayıb.

2020-ci ilin payızında başlayan və Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi minlərlə igid oğulun cəsarəti



sayəsində qələbə ilə nəticələndi. Bu müharibə Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin isə Vətənə olan sarsılmaz sədaqətini bir daha bütün dünyaya göstərdi.

Baş çavuş Anar Qəhrəmanov da həmin şanlı mübarizənin iştirakçılarından biri olub. Çətin və məsuliyyətli tapşırıqların icrasında göstərdiyi mətinlik onun əsl hərbçi xarakterini ortaya qoyub.

Müharibə zamanı göstərdiyi xidmətlər dövlət tərəfindən yüksək qiymətləndirilib. O, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub. Bu medallar yalnız bir hərbçinin sinəsini bəzəyən nişan deyil, həm də onun keçdiyi şərəfli döyüş yolunun, göstərdiyi şücaətin rəmzidir.

Bu gün baş çavuş Anar Qəhrəmanov xidmət etdiyi hərbi kollektivdə nümunəvi hərbçi kimi tanınır. Onun intizamı, peşəkarlığı və xidmətə məsuliyyətlə yanaşması gənc əsgərlər üçün örnəkdir. O, hər zaman deyir ki, hərbçi üçün ən böyük mükafat Vətənin etimadını doğrultmaqdır.

Anar Qəhrəmanov kollektivdə həm də müsbət xüsusiyyətə malik bir hərbçi kimi seçilir. Xidmət yoldaşları onun səmimiyyətini, köməksevərliyini və çətin anlarda göstərdiyi dəstəyi yüksək qiymətləndirirlər. O, hər zaman xidmət yoldaşlarını ruhlandırmağı, onları Vətənə sədaqət ruhunda birləşdirməyi bacaran hərbçilərdəndir.

Baş çavuş Anar Qəhrəmanov ailəlidir və iki oğul övladı var. Ailəsi onun üçün böyük mənəvi dayaqdır. Hərbçi həyatının çətinliklərinə baxmayaraq, o, ailəsinə böyük sevgi və diqqətlə yanaşır. Onun ən böyük arzularından biri övladlarının da Vətənini sevən, cəmiyyətə faydalı insanlar kimi böyüməsidir.

Anar Qəhrəmanovun həyat yolu bir daha sübut edir ki, Vətənə sədaqətlə xidmət etmək hər bir Azərbaycan oğlunun ən böyük şərəfidir. O, təkcə bir hərbçi kimi deyil, həm də vətənpərvər insan kimi gənclər üçün nümunədir.

Bu gün Azərbaycan Ordusunun gücü məhz belə igid və məsuliyyətli hərbçilərin sayəsində daha da möhkəmlənir. Baş çavuş Anar Qəhrəmanov kimi Vətənə sədaqətlə xidmət edən hərbçilər ordumuzun şərəfli tarixini yazmaqda davam edirlər.

Vətən uğrunda göstərilən xidmət isə heç vaxt unudulmur. Çünki bu xidmət - torpağa bağlılığın, xalqa sədaqətin və əsgər andına sadiqliyin ən ali ifadəsidir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: Dövlətçilik tariximiz. Azərbaycan Atabəylər və Səfəvilər dövləti.**

**Suallar:**

1. Dövlətçilik tariximiz.
2. Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı.
3. Səfəvilər dövlətinin yaranması və Azərbaycan tarixində onun yeri.

### Dövlətçilik tariximiz

VII əsrin əvvəllərində Azərbaycanın şimalında - Albaniyanın Girdiman vilayətində mərkəzi Partav şəhəri (indiki Bərdə şəhəri) olmuş Mehranilər sülaləsinin (sabirlər adlı türk tayfaları) hökmranlığı başladı. VII əsrin 60-cı illərində Xilafətdə Əməvilər sülaləsinin nümayəndələri hakimiyyətə gəldikdən sonra müharibələri gücləndirdilər. Şimaldan xəzərlərin yürüşü, cənubdan isə Sasani feodallarının hücumu Cavanşirin (642-681-ci illər Girdiman vilayəti) Xilafətə qarşı münasibətini dəyişdi. Cavanşir uzaqgörən xarici siyasəti ilə Azərbaycanın şimal torpaqlarını - Albaniyanı Ərəb xilafətinin, Bizansın, Sasanilərin və xəzərlərin işğallarından xilas etdi. Lakin müstəqilliyə can atan bizanspərəst feodallar sui-qəsd təşkil edərək 681-ci ildə Cavanşiri qətlə yetirdilər. 705-ci ildə ərəblərin hücumu nəticəsində Albaniyanın daxili müstəqilliyi ləğv edildi.

Sasani imperiyası dağıldıqdan sonra ərəblər Azərbaycanın işğalını genişləndirdilər. Azərbaycan uğrunda ərəblərlə xəzər türkləri arasında başlayan müharibələr VIII əsrdə daha da şiddətləndi. Ərəb işğalları və İslam dininin Azərbaycanın bütün ərazisində yayılması əvvəlki dinləri tam sıxışdırıb çıxara bilməsə də xalqın taleyində misilsiz dönüş yaratdı. İqtisadi və siyasi sabitlik yarandı.

Xilafətə tabe olan ölkələrdə azadlıq müharibələri genişlənmiş, mərkəzə tabe olmaq istəməyən qüvvələrin sayı artmışdı. Azərbaycan Xilafətə qarşı azadlıq hərəkatının başlıca mərkəzlərindən biri idi. Ərəblərə qarşı mübarizə Xilafət imperiyasını zəiflətdi və Azərbaycanda bir sıra yerli feodal dövlətləri: Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətləri yarandı. Azərbaycanın qədim dövlətçilik ənənələri dirçəldi. Bu dövlətlərlə yanaşı, Şəki hakimliyi, Dərbənd və Tiflis əmirlikləri kimi nisbətən kiçik dövlətlər də yaranmışdı. Bu dövlətlərin hamısında İslam dini rəsmi din olmuş, Azərbaycan xalqının təşəkkülü üçün vacib olan vahid türk dili və türk-islam mədəniyyəti formalaşmışdı.

XI əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövlətləri arasında siyasi və iqtisadi əlaqələr zəif idi. Orta və Yaxın Şərqdə yaranan Səlcuqilər imperiyası Orta Asiya, İran, İraq, Suriya, Misir, Ön Qafqaz xalqları ilə birlikdə Azərbaycanı da hakimiyyəti altına keçirtdi. XII əsrin 20-30-cu illərində Səlcuq sultanları arasında hakimiyyət uğrunda mübarizə nəticəsində mərkəzi hakimiyyət zəiflədi və nəticədə XII əsrin 30-cu illərində xalqımızın etnik-siyasi tarixində xüsusi çəkiyə malik olan Azərbaycan Atabəylər dövləti yarandı.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil dövlətin daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, onun hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, xalqın maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. XV əsrin sonu-XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirərək paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti - Səfəvi dövlətini yaratdı. Şah İsmayıl, Şah Təhmasib və digər Səfəvi hökmdarlarının fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Səfəvi dövləti qısa müddətdən sonra Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.

### Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı

Azərbaycan atabəylərinin idarə etdiyi Eldəgizlər dövləti (1136-1225) Azərbaycan tarixində İldənizlər və ya Eldəgəzlər dövləti kimi də tanınır. Atabəy Şəmsəddin Eldənizin adı ilə bağlı olan Atabəylər dövlətinin ərazisi İraqı, İranı və Kür çayından cənubdakı Azərbaycan torpaqları da daxil olmaqla, Cənubi Qafqazın bir hissəsini əhatə edirdi. Səlcuq sultanı II Toğrul (1132-1134) Şəmsəddin Eldənizə "əmir" titulu verdi və onu öz oğlu Arslan şahın atabəyi təyin etdi. 1136-cı ildə o, Arran hakimi təyin olundu və Bərdəyə göndərildi. Bununla müstəqil Azərbaycan Eldənizlər dövlətinin və bu dövləti idarə edən Eldənizlər sülaləsinin əsası qoyuldu. Şəmsəddin Eldəniz bir çox xırda feodal mülklərini aradan qaldıraraq bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. O, sultan sarayından iqta aldığı Arranla yanaşı, Azərbaycanın bəzi cənub bölgələrini, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başladı. Paytaxt əvvəllər Naxçıvan şəhəri idi. 1160-cı ildə Şəmsəddin Eldəniz "Böyük Atabəy" titulunu aldıqdan sonra bütün İraq Səlcuq sultanlığını özü idarə etməyə başladı. Böyük oğlu Məhəmməd Cahan Pəhləvan sultanın hacibi, kiçik oğlu Qızıl Arslan isə ordunun ali baş komandanı təyin edildi. Beləliklə, İraq Səlcuq sultanlığı Azərbaycan sultanlığına çevrildi. Şirvanşahlar dövləti və Azərbaycan üçün daim təhlükə yaradan gürcü torpaqları da Eldənizlər dövlətinin tərkibinə daxil edildi. Şəmsəddin Eldənizin hakimiyyətinin sonuna yaxın Eldənizlər dövləti Dərbənd keçidindən İran körfəzinə qədər çox geniş əraziləri - Azərbaycanı, o cümlədən Arran və Şirvan, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Reyi əhatə edirdi. Mərkəzi hakimiyyətdən iqta almış əmirlərin hərbi qüvvələrindən başqa, hökmdarın özünün 50 min nəfərlik nizami süvari qoşunu vardı.

Səlcuq Sultanı III Toğrulun (1176-1194) atabəyi olan Məhəmməd Cahan Pəhləvan (Şəmsəddinin oğlu) hakimiyyətə gəldikdən sonra (1175-1186) paytaxtı Naxçıvandan Həmədana köçürdü (1175), həmin ili Təbrizi Ağsunqurilərdən azad edərək mərkəzi hakimiyyəti daha da qüvvətləndirdi. Azərbaycanı onun kiçik qardaşı Qızıl Arslan idarə edirdi. Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə keçən qardaşı Qızıl Arslan (1186-1191) uzun müddət taxtacı ələ keçirməyə cəhd edən saray müxalifətinə və iri feodallara qarşı mübarizə apardı. Mərkəzi hakimiyyətin qüvvətlənməsindən narazı qalan iri feodallar və İnanc Xatın Qızıl Arslanı sui-qəsdlə (1191) öldürdülər. Azərbaycanda hakimiyyəti Əbu Bəkr (1191-1210) ələ keçirdi. Məhəmməd Cahan Pəlvanın digər oğulları Qutluq İnanc və Əmir Əmiran Ömərin idarə etdikləri İsfahan, Rey vilayətləri və İraqın bir hissəsi Eldənizlər dövlətindən ayrıldı. Parçalanmalar dövlətin tənəzzülünü sürətləndirdi. Vəziyyətdən istifadə edən Xarəzmşahlar, Əyyubilər, Abbasilər, Şirvanşahlar və gürcü çarları fəallaşdılar. Gürcü qoşunları 1203 və 1210-1211-ci illərdə Azərbaycan torpaqlarına dağıdıcı basqınlar etdilər. Onlar Qərbi Azərbaycanı və Naxçıvanı mühasirəyə aldılar, lakin ələ keçirə bilmədilər. Sonra Mərəndi talan etdilər, Təbrizi mühasirəyə aldılar. Şəhər hakimi Zahidə Xatın (Məhəmməd Cahan Pəhləvanın arvadı) çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verib şəhəri dağıntıdan qurtardı. Özbəyin (1210-1225) hakimiyyəti illərində Eldənizlər dövlətinin süqutu daha da sürətləndi. Beləliklə, monqolların hücumu ərəfəsində Azərbaycan dövlətlərindən heç biri nə Eldənizlər, nə də Şirvanşahlar ölkəni xarici təhlükədən qorumağa qadir deyildilər. 1206-cı ildə Çingiz xan tərəfindən Mərkəzi Asiyada yaradılmış Monqol dövləti hərbi yürüşlərə başladı. 1220-ci ildə monqol qoşunu Cəbə və Subutayın rəhbərliyi ilə Azərbaycan torpaqlarına daxil oldu və Təbrizə çatdı. Şəhər möhkəm qala divarları ilə əhatə olunduğundan monqollar danışığa girməyə üstünlük verdilər.

1221-ci ilin əvvəllərində Marağaya və 1222-ci ildə Şamaxıya hücum edən monqollar şəhərləri talan etdilər. Bu hadisədən sonra monqollar şimala üz tutdular. Dərbəndi tuta bilməyəcəklərini anlayıb Azərbaycanı tərk etdilər. Yeni torpaqlarda möhkəmlənmək istəyən Xarəzmşah şahzadəsi Cəlaləddin 1225-ci ildə Azərbaycana hücum etdi. Atabəylərin sonuncu hökmdarı Özbək Naxçıvana, Əlincə qalasına yollandı. Başsız qalan Təbriz əhalisi bir həftə döyüşdü və Cəlaləddin qələbə qazandı. Təbriz, daha sonra isə Gəncə zəbt edildi və bununla da Atabəylər dövləti süquta uğradı.

### Səfəvilər dövlətinin yaranması və Azərbaycan tarixində onun yeri

Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər dövlətinin özünəməxsus yeri vardır. Bu tarixi mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda başlanğıc rolunu oynamışdır. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları onların təsiri altına düşmüşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri tarix səhnəsində daha ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər. Səfəvilərin hakimiyyəti Ərdəbil dövründən (1501) başlanır və 1736-cı ilə qədər (Nadir şah elan olunur və Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyulur) davam edir.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Səfəvilər ərazilərini genişləndirmək məqsədilə birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. 1500-cü ilin payızında qızılbaşlar (səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanşahlar dövləti məğlub edildikdən sonra İsmayıl Bakı üzərinə hücuma keçərək onu ələ keçirdi. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində Ağqoyunlular və Səfəvilər arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti göstərərək qələbə qazandı. Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. 1503-cü ildə Ağqoyunlu dövlətinin varlığına son qoyan şah İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu ölkənin təsərrüfat həyatı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı.

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı İmperiyasını narahat edirdi. Osmanlı İmperiyasının sultanı II Bəyazit Şah İsmayıla qarşı müharibəyə başlamaqdan imtina edərək, 1504-cü ildə bu dövləti tanıdı. Bununla belə, Osmanlı İmperiyası ilə Səfəvilər dövləti arasındakı müharibənin başlanmasına maraqlı olan xristian dövlətləri Almaniya, Fransa, Portuqaliya, İspaniya, Skandinaviya dövlətləri, eləcə də Roma Papası çox istəyirdilər və bunu da, "Allahın xristian dünyası üçün yaratdığı bir fürsət" kimi qiymətləndirmiş bundan da dərhal istifadə etməyə çalışmışdılar. 1514-cü il avqustun 24-də Çaldıran düzündə tarixin ən qanlı qardaş qırğını, türk dünyasının ümumi faciəsi, Qərb diplomatiyasının isə qələbəsi oldu. Bu döyüşdə Səfəvilər məğlub olaraq Ərzurum şəhəri ilə birlikdə Şərqi Anadolunu və Şimali İraqı itirdilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576). Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirir, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı.

XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Osmanlı imperiyasına verildi.

1639-cu il mayın 17-də Qəsri-Şirində imzalanmış sazişə görə Səfəvi-Osmanlı müharibəsinə son qoyuldu. Ərəb İraqı Osmanlılara, Zəncir qalasından şərqdəki torpaqlar Səfəvilərə verildi. Səfəvilər Van və Qars qalalarına, həmçinin Axalsıxa hücum etməyəcəklərinə dair təminat verdilər. Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqları parçalandı və ayrı-ayrı ərazilərdə xanlıqlar yaranmağa başladı.

Tariximizin hansı səhifəsini vərəqləsək, orada igid babalarımızın keçdiyi qəhrəmanlıq yollarının izinə rast gələrik. Çünki yaşadığımız torpağı qorumaq üçün Vətən uğrunda mübarizə amili vətənpərvərliyi şərtləndirir. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət ənənələrinə bağlanmış dövlətçilik durur. Azərbaycanda dövlətçilik ənənələrinin məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən bərpa edilməsi və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fəaliyyəti sayəsində inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması mümkün olub.

**İdeoloji Təminat İdarəsi**

## Görkəmli şəxsiyyətlər

# 31 il Türkiyə Silahlı Qüvvələrində xidmət edən azərbaycanlı polkovnik Məmməd Ağpolad

(Əvvəli 1-ci səhifədə)

1920-ci il martın 21-də erməni-daşnak qüvvələri Əsgəranda yerləşən Cavanşir piyada alayının mövqelərinə qəfil hücum edib, Əsgəran keçidini ələ keçirərək üsyana başlayıblar. 1920-ci il martın 26-da Azərbaycan Ordusu Əsgəran istiqamətində erməni Dronun qoşunlarına qarşı genişmiqyaslı hücuma başlayıb. Milli Ordunun zabiti kimi Məmməd Rzayev də komandiri olduğu topçu batareyası ilə bu döyüşlərdə iştirak edib. Əsgəranda başlayan şiddətli döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşıb. Aprelin ortalarına qədər davam edən döyüşlərdə düşmən qüvvələri bütünlüklə məhv edilib.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşeviklərə qarşı 1920-ci ilin mayında baş qaldıran Gəncə üsyanında iştirak edib. Bir neçə gün Gəncənin müdafiəsində iştirak etdikdən sonra Qarabağa gedib və burada 1920-ci ilin iyununda Nuru Paşanın rəhbərliyi ilə baş tutan Qarabağ üsyanında iştirak edib. Üsyan məğlub olduqdan sonra komandiri olduğu topçu batareyası ilə birgə Cümhuriyyət Ordusunun süvari və piyada alaylarının sağ qalan əsgərləri ilə bərabər döyüşlərdə





iştirak edərək Qaryagin (indiki Füzuli rayonu) və Cəbrayıl istiqamətində geri çəkilib, Araz çayından keçərək İran ərazisinə daxil olublar.

Sovet işğalına qarşı baş qaldıran üsyanlar məğlub olduqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun qalan hərbçilərinin bir qismi Zəngəzuru keçərək Naxçıvana, bir qismi isə Xudafərin istiqamətindən İrana keçərək Türkiyəyə gediblər. Məmməd Ağpolad həmin zabitlərdən biri olub.

Məmməd Ağpolad bu hadisələri belə təsvir edib: "İşğalçı bolşevik ordusu ilə aparılan savaşlardan sonra Azərbaycan birliyinin bir qismi ilə bərabər Xudafərin körpüsündən 4 səhra toplu batareyamızla İrana keçdik. Uzun bir dolaşmadan və macəradan sonra Araz çayını təkrar keçərək Naxçıvanın Ordubad qəzasına gəldik. Yol olmadığı üçün 4 səhra topunu İranda tərk etmək məcburiyyətində qaldıq. Lakin topların durbinlərini, nişangahlarını, çaxmaqlarını və bir qisim qoşqu ləvazimatlarını özümüzlə birgə gətirdik. Naxçıvanda bir depoda durbinsiz, nişangahsız, çaxmaqsız iki ədəd top tapdıq. Onları işlək hala gətirərək XI tümənin Naxçıvanda yerləşən Veysəl bəyin komandanlığındakı taboru ilə birgə Dəvəli və Şahtaxtıda erməni ordusu ilə savaşdıq".

Şahtaxtıda 11-ci tümənin 1-ci taborunun iki bölüyü və Məmməd bəyin komandiri olduğu topçu batareyası 2000 nəfərlik erməni silahlı qüvvələrinin şiddətli hücumuna məruz qalıb. Daha sonra Məmməd bəy öz batareyası ilə Maku üzərindən Türkiyəyə keçərək 12 iyulda Şərqi Bəyazidə çatıb. Özləri ilə gətirdikləri 2 səhra topunu Şərqi Bəyaziddə 11-ci topçu alayına təhvil verərək 23 nəfər silahdaşı ilə birgə Ərzuruma doğru hərəkət ediblər. Bir həftə sonra Ərzuruma daxil olub, Soyuq Çermik bölgəsində yerləşən Azərbaycan hərbi birliyinə qatılıblar.

Məmməd bəy də Türkiyə İstiqlaliyyət Savaşına Cahangir bəy Bərkərin batareyasının tərkibində taqım komandiri olaraq qatılıb. 1920-ci ilin payızından 1921-ci ilin əvvəllərinə qədər Şərqi Anadoluda baş vermiş Doğu Hərəkatında Sarıqamışın, Qarsın, Gümrünün geri alınması əməliyyatlarında iştirak edib. Qarsın Bənli Əhməd kəndi yaxınlığında Berna meydan müharibəsində göstərdiyi igidliklərə görə Mustafa Kamal Atatürkün imzası olan təqdirnamə ilə təltif olunub. Türkiyə İstiqlaliyyət Savaşının bitməsindən sonra orduda qalaraq hərbi xidmətini davam etdirib.

Müharibədən sonra 1925-ci ildə Şeyx Səid üsyanının, 1926-cı ildə 1-ci Ağrı, 1927-ci ildə 2-ci Ağrı üsyanlarının yatırılmasında iştirak edib.

1928-ci ilin avqustunda "üsteğmen" ("leytenant") rütbəsi ilə təltif olunub. Təhsilini artırmaq üçün İstanbulda Hərbi məktəbə qəbul olub. 1929-cu ildə topçu məktəbindən məzun olduqdan sonra İzmirdə olan Foça Artilleriya qrupunda batareya komandiri vəzifəsinə təyin olunub. 1930-cu ildə "yüzbaşı" ("baş leytenant") rütbəsinə yüksəldilib. 1939-cu ildə Muğlada yerləşən Topçu alayında 6-cı batareyanın komandiri vəzifəsinə təyin edilib. 1940-cı ildə "minbaşı" ("mayor") rütbəsi ilə təltif olunduqdan sonra Çatalcada 64-cü tümənin topçu alayının 2-ci taborunun, 1943-cü ildə 40-cı tümənin topçu alayının, 1945-ci ilin dekabrında Qarsda 49-cu Topçu alayının 2-ci taborunun komandiri vəzifələrində xidmət edib. 1946-cı ilin avqustunda "yarbay" ("polkovnik-leytenant") rütbəsinə yüksəldilərək Ərzurumda 3-cü ordunun silah anbarının, 1948-ci ilin iyulunda Diyarbəkirdə 7-ci Kolordunun motorlu topçu alayının komandir müavini vəzifəsinə təyin olunub. 1949-cu ildə "albay" ("polkovnik") rütbəsinə yüksəldilərək Diyarbəkirdə Təftiş Komissiyasının rəhbəri təyin olunub. 1950-ci ilin mayında xidməti vəzifəsini yerinə yetirərkən infarkt keçirib. Bir müddət müalicə aldıqdan sonra yenidən xidmətə qayıdıb. 1950-ci ildə Eskişehirdə Təftiş Komissiyasının rəhbəri vəzifəsinə təyin edilib. Lakin səhhəti imkan vermədiyi üçün 1951-ci ilin iyulunda təqaüdə çıxıb.

1934-cü il iyunun 21-də Türkiyədə qəbul edilən "Soyad qanunu"ndan sonra özünə "Ağpolad" soyadını götürüb.

Təqaüdə çıxdıqdan sonra Azərbaycan Kültür Dərnəyinin fəaliyyətində iştirak edib. 25 may 1958-ci ildə Yunis Xəzərlinin sədrliyi ilə İstanbulda dərnəyin illik qurultayı keçirilib. Seçkilər nəticəsində Baba Behbud, Məhəmməd Ağpolad, Həmid Gəncə dərnəyin müşahidə şurasına seçiliblər.

Məmməd Ağpolad 1975-ci il



Baba bəy Behbud, Səməd bəy Rəfibəyli və Məmməd Ağpolad Türkiyə Ordusunda xidmətdə olarkən

yanvarın 7-də dünyasını dəyişib, yanvarın 8-də Ankaradakı Cəbəci Şəhidlər xiyabanında dəfn edilib.

Rzayevlər nəslinə mənsub olan Məmməd bəyin atası Rza bəy, anası Şəkər xanımdır. Yunis, Binnət və Nemət adında qardaşı, Gövhər adında bacısı olub. Hər üç qardaşı 1937-ci ildə repressiyaya məruz qalaraq öldürülüb.

Məmməd Ağpolad Qarsda xidmətdə olduğu dövrdə burada Leyla adlı xanımla tanış olaraq ailə qurub. Bu evlilikdən Cəmilə və Orxan adlı övladları dünyaya gəlib.

Oğlu Orxan hərbçi olub və Koreya müharibəsində iştirak edib. 1950-ci ilin noyabr-dekabr aylarında baş verən Kunu-ri döyüşünün iştirakçılarından biri olub. Döyüşlərin birində yaralandıqdan sonra Türkiyəyə geri qayıdıb. Sağaldıqdan sonra xidmətini davam etdirib və "albay" rütbəsinə qədər yüksəlib.

**"Azərbaycan Ordusu"**

## Uğurlarınız bol olsun!

Serbiyanın Zrenyanin şəhərində keçirilən U-23 Avropa çempionatında Ordu İdman Klubunun sərbəst güləşçisi əsgər Ceyhun Allahverdiyev beynəlxalq arenada üçrəngli Dövlət Bayrağımızı ucaldıb.




61 kiloqram çəki dərəcəsində güləşən pəhləvanımız gümüş medal qazanaraq fəxri kürsüyə yüksəlib.

Həm əsgər, həm də idmançı kimi ölkəmizi layiqincə təmsil edən əsgər Ceyhun Allahverdiyevi ürəkdən təbrik edir, gələcək yarışlarda ona yeni qələbələr və qızıl medallar arzulayırıq.

**"Azərbaycan Ordusu"**

## İdman

### Sərbəst güləş: Azərbaycan Avropa çempionatında ilk qızıl medalını qazanıb



Serbiyanın Zrenyanin şəhərində keçirilən U-23 Avropa çempionatında sərbəst güləş yarışlarında 92 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan təmsilçisi Ali Tsokayev finalda türkiyəli Fatih Altunbaşla qarşılaşıb. Gərgin keçən görüş idmançımızın qələbəsi ilə yekunlaşıb. Bununla da Azərbaycan Avropa çempionatında ilk qızıl medalını qazanıb.

### Azərbaycanın qadın güləşçisi Avropa çempionu olub



Azərbaycanın qadın güləşçisi Günay Qurbanova Serbiyanın Zrenyanin şəhərində təşkil olunan U-23 Avropa çempionatında qızıl medal qazanıb.

59 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız finalda Belarus təmsilçisi Marta Hetmanava ilə qarşılaşıb. Görüş idmançımızın qələbəsi ilə yekunlaşıb. Günay Qurbanova Avropa çempionu olub.

### Azərbaycan boksçuları Dünya Kuboku statuslu turnirdə 4 medal qazanıblar



Monteneqronun Budva şəhərində gənc boksçular arasında keçirilən Dünya Kuboku statuslu "Adriatik incisi" beynəlxalq turniri başa çatıb.

Azərbaycan millisi 18 ölkənin qatıldığı yarışda 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıb. Komandanın heyətində Rza Rzayev (70 kq) bütün rəqiblərinə qalib gəlib. O, finalda Maksim Kirillovu 4:1 (30:27, 28:29, 29:28, 29:28, 29:28) hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Digər boksçularımızdan Heydər Əzməmmədov (85 kq) gümüş, Vüsal Xəlilov (65 kq) və Zaur Səmədov (90 kq) bürünc medala yiyələniblər. Millimiz bu göstərici ilə komanda hesabında 3-cü yeri tutub.

### Azərbaycanı Dünya Kubokunda 4 güllə atıcısı təmsil edəcək

İspaniyanın Qranada şəhərində keçiriləcək Dünya Kubokunda ölkəmizi 4 idmançı təmsil edəcək. Yığmanın heyətində Xanna Əliyeva, Vladislav Kalmıkov, Ruslan Lunyov və Nigar Nəsirova yer alıblar.

Dünya Kuboku aprelin 5-dən 13-dək təşkil olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Fuad CƏFƏROV | Lisenziya № 361 Sifariş № 278 Nüsxə 3653 |